| | |
|---|---|
| | **AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**<br>**"NAXÇIVAN" UNİVERSİTETİ**<br>**FƏNN SİLLABUSU**<br><br>\ Təsdiq edirəm:___________<br>Kafedra müdiri: Dos.N.M.Məmmədova<br>Tarix: 07 sentyabr 2022 |

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Ədəbiyyat nəzəriyyəsi |
| | **Fakültə** | Pedaqoji |
| | **İxtisas** | Azərbaycan dili və ədəbiyyatı |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Magistratura |
| | **Kurs** | III |
| | **Semestr** | V |
| | **Təlimçi** | Dosent İman Cəfərov |
| | **e-mail** | altay1999@yahoo.com |
| | **Telefon** | 0503914311 |
| | **Dərs günləri və saatları** | I gün, II saat // IV gün II saat |

| | |
|---|---|
| **Tədris dili** | Azərbaycan |
| **Baza/ Seçmə** | Baza |
| **Tələb olunan dərsliklər və dərs materialları** | Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996 |
| **İstifadə ediləcək web səhifələr** | http://genderi.org/pars_docs/refs/78/77136/77136.pdf<br>https://turuz.com/book/title/edebiyat+Nezeriyyesi+-+Rehim+eliyev |
| **Fənnin xülasəsi** | Ali məktəbdə tədris olunan "Ədəbiyyat nəzəriyyəsi" fənni tələbələri ədəbi prosesin ideya-estetik mahiyyətini, bədii yaradıcılığın spesifikliyini və qanunauyğun inkişafını, ədəbi fəaliyyətin özünəməxsusluğunu mənimsəməyə və yaradıcı dərkə hazırlayır. "Ədəbiyyat nəzəriyyəsi" fənn olaraq ədəbi təhlil və hərtərəfli qiymətləndirmək prinsiplərini müəyyənləşdirir, bədii yaradıcılığın inkişafını istiqamətləndirən qanunları, ədəbi cərəyan, metod və üslubları tədqiq edir. Bədii ədəbiyyatdan, onun ictimai həyatla sıx əlaqəsindən, sənətdə ənənə və novatorluqdan bəhs edərək göstərir ki, bədii faktlara müasir düşüncə və təfəkkürlə yanaşılmalı, bu günün ideya-estetik tələbləri, ədəbi meyar və ölçüləri nəzərə alınmalıdır |
| **Fənnin məqsədləri** | "Ədəbiyyat nəzəriyyəsi" fəninin əsas məqsədi tələbələri bədii ədəbiyyatın ictimai şüur forması kimi əsas missiyaları haqqında biliklərlə silahlandırmaq, onları ədəbi-nəzəri fikrin keçdiyi yolla tanış etmək, ədəbi növ və janrlara dair elmi sistemləri tələbələrə mənimsətmək, bədii gülüşün mahiyyətini yeni nəsil ziyalılar üçün aydınlaşdırmaqla tələbələrin ədəbi-nəzəri hazırlığını, bədii-estetik zövqünü formalaşdırmaqdır. |
| **Öyrənmə nəticələri** | Ədəbiyyat nəzəriyyəsi fənnini öyrədilərkən aşağıdakı nəticələr əldə olunur:<br>1. Tələbələr bədii yaradıcılığın spesfikliyini və qanun-qaydalarını dərk edə bilirlər.<br>2. Tələbələrdə ədəbi-bədii nümunələri təhlil və qiymətləndirmək bacarığı formalaşır.<br>3. Çağdaş ədəbi prosesi hərtərəfli öyrənmək və təhlil etmək bacarığı əldə olunur. |

| | | |
|---|---|---|
| **Tədris metodları** | **Mühazirə** | Fənnə aid ümumi xarakterli məlumatlar verilir |
| **Tədris metodları** | **Qrup müzakirəsi** | Tələbələrə fərdi mövzuda prezentasiyalar verilir və müzakirə aparılır |
| **Tədris metodları** | **Təcrübi məşğələ** | Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilməlidir |
| **Tədris metodları** | **Simulyasiya** | Tələbələrə dərsə aid fərdi tapşırıqlar verilməli və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilməlidir |
| **Tədris metodları** | **Layihə** | |
| **Tədris metodları** | **Digər** | |
| **Qiymətləndirmə** | **Mövzunun mənimsənilməsi** | **Faiz nisbəti (%) və ya bal** |
| **Qiymətləndirmə** | Balların maksimum miqdarı | 100 bal |
| **Qiymətləndirmə** | 1. Semestr ərzində toplanmış maksimum bal | 50 bal (50%) |
| **Qiymətləndirmə** | - Dərsə davamiyyətə görə maksimum bal | 10 bal (10%) |
| **Qiymətləndirmə** | - Tələbələrin sərbəst işinə görə maksimum bal | 10 bal (10%) |
| **Qiymətləndirmə** | - Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal | 30 bal (30%) |
| **Qiymətləndirmə** | **Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.** | |
| **Qiymətləndirmə** | 2. İmtahan nəticələrinə görə maksimum bal | 50 bal (50%) |
| **Qiymətləndirmə** | 3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – “qeyri kafi” – F<br>- 51 – 60 - “qənaətbəxş” – E<br>- 61 – 70 – “kafi” – D<br>- 71 – 80 – “yaxşı” – C<br>- 81 – 90 – “çox yaxşı” – B<br>- 91 – 100 – “əla” | |
| **Qiymətləndirmə** | **Cəmi:** | **100 bal (100%)** |
| **Qiymətləndirmə metodları** | **Tapşırıqlar:** Sərbəst iş mövzuları verilir və semester sonu yoxlanılıb qiymətləndirilir.<br>SƏRBƏST İŞLƏRİN MÖVZULARI<br>1. Hüseyn Cavid yaradıcılığında<br>2. Məmməd Arazın qoşmaları<br>**Təqdimat:** Slaydlarla hazırlanan mövzular təqdimat şəklində izlənilir və qiymətləndirilir | |
| **Qaydalar** | **Davamiyyət:** Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Buraxılmış imtahan və ya tapşırıqlar:** Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə | |

| | |
|---|---|
| | yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər. |

**Tematik plan**

| Həftə | Tarix | Mövzular | Dərslik / Tapşırıq / Ədəbiyyat |
|---|---|---|---|
| **1** | **19.IX.2022 müh.** | Mövzu 1. Bədii ədəbiyyat haqqında. Bədii ədəbiyyat ictimai şüur forması kimi<br>İctimai şüurun mahiyyəti. Elm, din, əxlaq, incəsənət, fəlsəfə ictimai şüurun formları kimi və onların qarşılıqlı əlaqəsi. Bədii ədəbiyyat ictimai həyatın, cəmiyyətin obrazlı əksi kimi. Ədəbiyyatın xəlqi səciyyəsi və tərbiyəvi əhəmiyyəti. Bədii yaradıcılıq prosesinin mahiyyəti. Bu yaradıcılıq fərdin intelektual fəaliyyəti kimi bədii ədəbiyyətin real həyatla bağlılığı. Yaradıcılıqda obyektiv tarixi şəraitin istedad və qabiliyyətin bədii fantaziya və intuisiyanın, metod və dünyagörüşün rolu. Yaradıcılıq prosesinin mərhələləri: həyatı öyrənmə, düşünmə, canlandırma. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012.<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981.<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008.<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br>Tapşırıqlar:<br>1. İctimai şüurun mahiyyətinə aydınlıq gətirmək.<br>2. Bədii ədəbiyyatın digər ictimai şüur formalarından oxşar və fərqli xüsusiyyətlərini bilmək.<br>3. Ədəbiyyatın xəlqi səciyyəsi və tərbiyəvi əhəmiyyətini şərh etmək.<br>4. Yaradıcılıq prosesinin mərhələlərinə dair sxem tərtib etmək |
| **2** | **26.IX. 2022 müh.** | Mövzu 2. Ədəbiyyat nəzəriyyəsi elminin təşəkkülü və inkişafı.<br>Qədim Yunanıstan və Romada ədəbi-nəzəri fikir. Platon və Horatsi. Aristotelin “Poetika” əsəri haqqında məlumat. Qədim Şərqdə ədəbiyyat nəzəriyyəsi. Reresans dövründə ədəbi-nəzəri fikir. Klassizm nəzəriyyəsi. N.Bualonun “Poeziya sənəti” əsəri. Lessinqin ədəbiyyat haqqında fikirləri. Romantizmi dövrünün sənətkarları (Bayron, Şelli, Hüqo, Heyne) ədəbiyyat haqqında. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012.<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981.<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008.<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br>Tapşırıqlar:<br>1. Platonun ədəbi-nəzəri |

| | | | |
|---|---|---|---|
| | | Realizmi dövründə ədəbi-nəzəri fikir (Beliniski, Çernişevski). Ədəbiyyatşünaslıqda naturalizmi nəzəriyyəsi (Emil Zolya). Ədəni-nəzəri fikrin inkişafında sosialist realizmi dövrü. | görüşlərini şərh etmək.<br>2. Aristotelin ədəbiyyat haqqında fikirlərinə aydınlıq gətirmək.<br>3. Bualonun "Poeziya sənəti" əsərini təhlil etmək.<br>4. Romantik və realist sənətkarların ədəbiyyata münasibətdə oxşar və fərqli məqamları sxemlər üzrə şərh etmək. |
| **3** | **03.X. 2022 müh.** | Mövzu 3. Ədəbiyyat nəzəriyyəsi məsələləri Azərbaycan filoloji fikrində<br>Xətib Təbrizinin "Əruz və qafiyə elminə dair" qısa xülasə traktatı. Yusif Xoylunun şeir haqqında mülahizələri. Ə.Xəqani, N.Gəncəvi, A.Ərdəbilli, M.Füzuli kimi şairlərin söz haqqında fikirləri. Şərafəddin Ramini (XIV əsr) "Ənisül-Üşşaq" və "Həqayiqül-Həqayiq" əsərləri. Vəhid Təbrizinin (XV əsr) "Risaleyi-Cəmi-Muxtəsər" və "Miftahül-Bədaye" ("Bədiyyatın açarı"), N.Tusinin "Meyarül-Əşar" risalələri. Azərtbaycan ədəbi-nəzəri fikrin inkişafında təskirələrin rolu. Sadiq bəy Sadiqinin (1533-1610) "Məcməül-Xəvas" ("Seçilmişlərin toplusu"), "Təskirətüş-Şüəra", Sam Mirzənin "Töhfətül-Sami", Lütfəli bəy Azərin (1722-1781) "Atəşgədə" təskirələrində ədəbiyyat nəzəriyyəsi məsələləri. Azərbaycan ədəbi-nəzəri fikri XIX əsrdə. M,F.Axundzadənin nəzəri-estetik fikirləri. Ədəbi-nəzəri fikir XX əsrin əvvəllərində. Romantiklərin və realistlərin ədəbiyyat haqqında görüşləri. XX əsrin 20-ci illərindən sonra Azərbaycanda ədəbiyyat nəzəriyyəçiləri. Cəfər Xəndan, Ə.Mirəhmədov, Y.Qarayev, İ.Həbibbəyli | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012.<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981.<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008.<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br>Tapşırıqlar:<br>1. Xətib Təbrizinin ədəbiyyat haqqında düşüncələrini sxemləşdirmək<br>2. Sözə münasibətdə Nizaminin mövqeyini şərh etmək<br>3. Ədəbi-nəzəri görüşlər baxımından Nizami ilə A.Ərdəbilini fərqləndirən məqamlara aydınlıq gətirmək<br>4. Füzulinin "Söz" qəzəlini əzbərləmək, təhlil etmək<br>5. M.F.Axundzadənin "Nəzm və nəsr" haqqında əsərində müəllifin ədəbi mövqeyinə aydınlıq gətirmək.<br>XX əsrin 20-ci illərindən sonra Azərbaycanda ədəbiyyat nəzəriyyəçilərinin xidmətlərini ümumiləşdirmək. |

| | | | |
|---|---|---|---|
| **4** | **10.X. 2022 müh.** | Mövzu 4. Bədii ədəbiyyatda forma və məzmun. Ənənə və novatorluq<br>Forma və məzmun anlayışları. Onların mahiyyəti və dialektik vəhdəti. Məzmun kateqoriyasının komponentləri: Mövzu, ideya, ədəbi qəhrəman. Forma kateqoriyasının komponentləri. Dil, üslub, ədəbi növ və janrlar. Ədəbiyyatın məzmunca bəşəri, formaca milli olması. Milliliklə bəşəriliyin vəhdəti. Milli ideyanın qeyri-milli formada yaxud qeyri-milli ideyanın milli formada verilə bilməsi.<br>Ənənə - tarixən müəyyən dövrdə yaranmış və sonrakı dövrlərdə yaşadılan, davam etdirilən bədii-mənəvi sərvətlər, yetkin-ədəbi nailiyyətlər kompleksi kimi. Ənənənin böyük sənətkarlar tərəfindən yaradılması ( Bu baxımdan ədəbi məktəb anlayışı ilə sinonim olması) və sonrakı sənət-karlar tərəfindən yaşadılması. Ənə-nənin məzmunda və formada təzahürü. Novatorluq – klassik ənənələr üzərində yaranan və təzə ənənələrin meydana gəlməsinə stimul verən yenilik, “köhnənin” inkişaf etdirilməsi əsasında yananan təzə. Ənənə və novatorluğun qarşılıqlı əlaqəsi – dialektikası | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012.<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981.<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008.<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Ədəbiyyatda forma və məzmuna dair M.F.Axundzadənin fikirlərini əzbərləmək.<br>2. Məzmun kateqoriyasının komponentlərini şərh etmək<br>3. Forma kateqoriyasının komponentlərini şərh etmək<br>4. Forma və məzmun kateqoriyasının komponentlərini aydınlaşdıracaq sxemlər tərtib etmək<br>5. Ədəbiyyatda Nizami, yaxud Füzuli ənənlərinin mahiyyətinə aydınlıq gətirmək.<br>Ənənə və novatorluq olmadan ədəbiyyatda inkişafın mümkünsüzlüyünü aydınlaşdırmaq |
| **5** | **17.X. 2022 müh.** | Mövzu 5. Bədii inikas üsulları və ədəbi növlər<br>Bədii inikas obyekltiv varlığın insan beynindəki surəti kimi həmin surətin yaradılmasında hiss, duyğu, düşüncə, və təfəkkürün rolu. İnikas prosesində iştirak edən tərəflər: Obyekt və subyekt. Onların dialektik əlaqəsi. Bədii inikas üsulu subyektin (yaradıcı şəxsiyyətin) obyektə münasibət forması kimi. Lirik növdə həyat hadisələrinin hisslər və duyğular vasitəsilə əksi. Lirikanın növləri: Məhəbbət lirikası, ictimai-siyasi lirika, peyzaj lirikası. Epik növdə təhkiyə və onun quruluşu. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. “Bədii inikas” məfhumunun mahiyyətinə aydınlıq gətirmək. |

| | | | |
|---|---|---|---|
| | | Dramatik növün özünəməxsusluğu. Ədəbi növlərin inkişafı. Epik-lirik, lirik-epik və epik-dramatik əsərlər. | 2. Obyektiv varlığın insan beynində bədii əksinin yaradılmasında hiss, duyğu, düşüncə, və təfəkkürün rolunu şərh etməyi bacarmaq<br>3. Lirikanın məzmunca növlərinə dair sxemlər tərtib etmək .<br>4. Epik növdə təhkiyyənin quruluşunu aydınlaşdırmaq.<br>Dramatik növün özünəməxsusluğunu sxemlər üzrə şərh etmək |
| **6** | **24.X. 2022 müh.** | Mövzu 6. Lirik növün janrları<br>Azərbaycan şifahi xalq ədəbiyyatında lirik növün janrları. Nəğmələr və onların növləri. Əmək nəğmələri: Holavarlar, bayatı sözləri, ovçu savları. Mərasim nəğmələri: Ağılar, oxşamalar, toy nəğmələri. Mövsüm nəğmələri: yaz, yaz payız, qış haqqında nəğmələr. Qəhrəmanlıq nəğmələri: məişət nəğmələri: layla, əzizləmə. Mahnılar və onların nəğmələrdən fərqi. Aşıq şeirinin janrları. Qoşma, gəraylı, varsağı, təcnis, müxəmməs. Bu janrların məzmunca və formaca tipləri: Gözəl-ləmə, ustadnamə, vücudnamə, qıfılbənd, dodaqdəyməz, diltərpən-məz. Ayaqlı qoşma. Ayaqlı təcnis. Cığalı təcnis. Bayatı. Onun həm şifahi xalq ədəbiyyatında həm də yazılı ədəbiyyatda işlənməsi. Azərbaycan klassik şeirinin janrları. Qəsidə və növləri. Qəzəl, qitə, məsnəvi, rübai, tuyuğ, mürəbbe, müxəmməs, müsəddəs, tərkibbənd, tərcibəbənd. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br>Tapşırıqlar:<br>1. Azərbaycan şifahi xalq ədəbiyyatında lirik növün janrlarını sxemlər üzrə şərh etmək.<br>2. Nəğmələrin növlərinə dair sxemlər tərtib etmək<br>3. Aşıq şeirinin janrlarına aid slayt hazırlamaq.<br>4. Aşıq şeirinin janrlarını səciyyələndirən oxşar və fərqli xüsusiyyətləri aydınlaşdırmaq.<br>5. Azərbaycan klassik şeirinin janrlarını aydınlaşdıracaq slayt hazırlamaq |
| **7** | **31.X. 2022 müh.** | Mövzu 7. Epik növün janrları<br>Şifahi xalq ədəbiyyatında epik növün janrları: Əsatir, əfsanə, rəvayət, nağıl, atalar sözü, məsəl, tapmaca. Dastan janrında epikliklə lirikliyin vəhdəti. Yazılı ədəbuyyatda epik növün janrları. Təmsil, hekayə. Mənsur və mənzum hekayələr. Novella, oçerk, povest, roman. Mövzusuna görə romanın tipləri: | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat |

| | | | |
|---|---|---|---|
| | | tarixi və müasir roman. Problematikasına görə romanın növləri: Siyasi roman, fəlsəfi roman, psixoloji roman, ailə-məişət romanı. Epik növdə silsiləvilik. Dilogiya, trilogiya, epopeya haqqında məlumat. | nəzəriyyəsi. Bakı: 1996<br>Tapşırıqlar:<br>1. Epik növün janrlarını sxemlər üzrə şərh etmək.<br>2. Yazılı ədəbiyyatda epik növün janrlarına aid slayt hazırlamaq.<br>3. Problematikasına görə romanın növlərini sxemlər üzrə şərh etmək.<br>4. Epik növdə silsiləviliyə dair məruzə hazırlamaq |
| **8** | **07.XI. 2022 müh.** | Mövzu 8. Dramatik növün janrları<br>Dramatik konflikt və kolliziya haqqında məlumat. Drammatik konfliktin janr-müəyyəmedici kateqoriya olması. Epik və lirik konfliktdən fərqi. Dramatik konfliktin növləri: komik, tragik və dramik konfliktlər. Azərbaycan şifahi xalq ədəbiyyatında dramatik növ. Xalq oyunları və xalq tamaşaları haqqında Azərbaycan şifahi xalq ədəbiyyatı kursunda verilən biliklərin möhkəmləndirilməsi və dərinləşdirilməsi. Yazılı ədəbiyyatda dramatik növün janrları. Komediya. Əsas əlamətləri: komik konflikt və komik situasiya. Komik qəhrəman və xarakter. Komik üslub və sujet. Faciə. Əsas elementləri: tagik konflikt və tragik zərurət. Tragik qəhrəman və tragik xarakter. Tragik üslub və süjet. Dram janrı. Bu janrın komediya və faciə arasında "orta mövqe" tutması. Dramik konfliktin həlledilən olması. Dram qəhrəmanının xarakteri. Dram üslubi və süjeti. Melodram – faciə və dram arasında "orta mövqeli" janr kimi. Bu janrda qəhrəmanın çətin vəziyyətdə qalıb böyük iztirablar çəkməsi və axırda bu vəziyyətdən qurtarıb istəyinə çatması. Nikbin final, "göz yaşı içərisində gülüş" melodramın başlıca əlaməti kimi. Vodevil – kiçik həcmli komedik janrdır. Bu janrda bədii gülüşün əyləndirici səciyyə daşıması. Vodevil qəhrəmanının | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Dramatik növün əsas janrlarını sxemlər üzrə şərh etmək.<br>2. Dramatik növün köməkçi janrlarına dair sxemlər hazırlamaq .<br>3. Azərbaycan şifahi xalq ədəbiyyatında dramatik növ məsələsinə aydınlıq gətirmək.<br>4. Komediyanın əsas əlamətlərini şərh etmək<br>5. Faciə və komediyanı Aristotel mövqeyindən fərqləndirmək<br>6. Tragik qəhrəman və tragik xarakter məsələsi ilə bağlı məruzə hazırlamaq |

| | | | |
|---|---|---|---|
| | | "qeyri-ciddi", "vecsiz" adamlar içərisindən seçilməsi və xaraktercə təlxəkvari olması. Təsvir edilən hadisələrin zahirən ictimai mənadan uzaqlığı. | |
| **9** | **14.XI. 2022 müh.** | Mövzu 9. Həyat eybəcərliklərinin estetik əksi. Bədii gülüş<br>Gülüş varlığı dərk etməyin xüsusi tipi, insanların cəmiyyətə, ictimai hadisələrə münasibəti, həyat eybəcərliklərini əks etdirənbədii vasitə kimi. Bədii gülüşün inkar pafosu. Tarixi qədimliyi. Şifahi xalq ədəbiyyatında gülüşün özünəməxsusluğu: hamının gülməsi. Azərbaycan şifahi xalq ədəbiyyatında məşhur gülüş qəhrəmanları: Bəhlul Danəndə, Molla Nəsrəddin, Hacı dayı, Ayrım Tağı, Mirzə Bağı. Yazılı ədəbiyyatda bədii gülüşün növləri: satira və yumor. Satiranın kəskin (öldürücü) gülüş olması. Satirada ifşa pafosunun (acı kinayə, istehza, lağa qoymaq) aparıcılığı. Satira haqqında mübahisələr. Azərbaycan ədəbiyyatında satiranın təşəkkülü və inkişaf mərhələləri. Yumor – islahedici gülüşdür. Yumorda tənqid pafosunun üstün mövqeyi. Tərbiyələndirmək və gözəlləşdirmək yumorun başlıca məqsədidir. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br>Tapşırıqlar:<br>1. Həyat eybəcərliklərinin estetik əksinin bədii gülüş formasında əks olunmasına dair məruzə hazırlamaq.<br>2. Azərbaycan şifahi xalq ədəbiyyatında məşhur gülüş qəhrəmanlarına dair slayt hazırlamaq .<br>3. Satiranın əsas səciyyəvi xüsusiyyətlərini aydınlaşdıracaq sxemlər tərtib etmək.<br>4. M.Ə.Sabir yaradıcılığı əsasında satiranı yumordan fərqləndirmək<br>5. Yumorun islahedici gülüş olduğunu əsaslandırmaq |
| **10** | **21.XI. 2022 müh.** | Mövzu 10. Bədii nitqin təşkili formaları<br>Bədii nitq anlayışı. Formaları: nəzm və nəsr. Nəzmin əlamətləri: ölçü, ahəng, bölgü, qafiyə, rədif. Şeir – poeziya anlayışı. Şeir-xüsusi məna, fikir ifadə edən bütöv mətn kimi. Mətnin daxili bölgüləri. Misra, beyt, bənd. Misranın növləri: Müstəqil və asılı misra. Beytin növləri: qafiyələnən və qafiyələnməyən beytlər. Qara beyt, şah beyt, tac beyt. Qafiyə - səs tərkibinə görə uyuşan sözlər. Uyuşmanın dərəcəsinə görə qafiyənin növləri: tam (zəngin) qafiyə, natamam (kasıb) qafiyə. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Nəzmin əlamətlərini sxemlər üzrə aydılmaşdırmaq.<br>2. Nəzmin əlamətlərinə dair |

| | | | |
|---|---|---|---|
| | | Səslənməsinə görə qafiyənin növləri: qulaq qafiyəsi, göz qafiyəsi. Misralardakı yerinə görə qafiyənin növləri: ön qafiyə, orta (daxili) qafiyə, son qafiyə. Hansı nitq hissəsi ilə ifadə olunmasına görə qafiyənin növləri: ismi və feli qafiyələr. Rədif misraların sonunda, qafiyədən sonra işlənən və bütün beytlərin yaxud bəndlərin axırında təkrarlanan söz, yaxud ifadə. Sadə və mürəkkəb rədiflər. Nəsrin əlamətləri. Nəsr ahəngi və intonasiyası. Bədii sintaksis. Cümlə və sintaktik bütövlər obrazyaratma vasitəsi kimi. Abzas. Bədii nitqin tipləri: dialoq və monoloq. Nəsrin tipləri: bədii və publisistik nəsr. Onların oxşar və fərqli cəhətləri. | slayt hazırlamaq.<br>3. Qafiyənin növlərinə dair sxemlər tərtib etmək<br>4. Rədifin növlərinə dair sxemlər tərtib etmək<br>5. Nəsrin əlamətlərini aydınlaşdırmaq<br>6. Dialoq və monoloqa aid məruzə hazırlamaq<br>“Ölülər” əsərindən İskəndərə aid monoloqları |
| **11** | **28.XI. 2022 müh.** | Mövzu 11. Şeir vəznləri<br>Vəzn – nəzmi nəsrdən fərqləndirən və poetik nitqdə ahəng yaradan əsas amil kimi. Şeirdə vurğulu və vurğusuz hecaların, uzun və qısa saitlərin, açıq və qapalı hecaların sayı və növbələşməsi, habelə müəyyən dilin fonetik xüsusiyyətləri, qrammatik qaydaları əsasında formalaşan ölçü sistemi. Dünya poeziyası tarixindəki vəznlər: antik vəzn, tonik vəzn, sillabik vəzn haqqında qısa məlumat. Azərbaycan şeirinin vəznləri. Heca vəzni. Misralardakı hecaların bərabərliyi və misradaxili bölgünün bütöv söz prinsipinə əsaslanması. Hecanın Azərbaycan şeirinin doğma vəzni olması və həm şifahi, hım dı yazılı ədəbiyyatda geniş yer tutması. Hecaların misralardakı sayına görə növləri: dördhecalı, beşhecalı, altıhecalı və s. şeirlər. Misraların daxili bölgüsünə görə növləri. Türk xalqlarının poeziyasında geniş yayılması. Tarixi haqqında məlumat. Əruz vəzni. Onun hecaya nisbətən mürəkkəb qaydalı olması: misralardakı hecaların sayı ilə bərabər onların uzun və qısalığının nəzərə alınması. Təfilə - əruz vəznli | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Şeirdə vəznin mahiyyətinə aydınlıq gətirmək<br>2. Dünya poeziyası tarixində vəznlərə dair sxemlər hazırlamaq.<br>3. Qafiyənin növlərinə dair sxemlər tərtib etmək<br>4. Rədifin növlərinə dair sxemlər tərtib etmək<br>5. Heca vəzninə dair məruzə hazırlamaq<br>Sərbəst şeirin əsas xüsusiyyətlərini səciyyələndirmək |

| | | | |
|---|---|---|---|
| | | şeirdə misradaxili bölgü; misradakı hecaların sayı baxımından seçilmiş hissələri. Təfilənin növləri: əsli və törəmə təfilə. Əruz vəzninin müxtəlif təfilələri əsasında yaranan formaları – bəhr. Bəhrlərin müxtəlif təfilələrin misralarda müvafiq şəkildə (2,3,4 dəfə) təkrarlanmasından yaranması. İşlənən (məsələn, həzəc, rəməl, xəfif və s. Onların sayı 19-dur.) və işlənməyən bəhrlər (məsələn, kəbir, həmid, səğir və s. Onların sayı 26-dır). Azərbaycan əruzunda işlənən bəhrlər: həzəc, rəməl, rəcəz, müctəs, müzare, mütəqarib, münsərih, xəfif, səri, mütədarik, kamil, müqtəzəb. Ən çox işlənən bəhrlər: rəməl, həzəc, münsərih, xəfif, səri. Bu bəhrlərin təfilələri və nümunələr. Sərbəst vəzn. Özünəməxsusluğu. Yaranma tarixi və nümunələr. Qarışıq vəzn haqqında məlumat. Sərbəst şeir. Onun sərbəst vəzndən fərqi. Sərbəst şeirdə əruz və hecaya məxsus "dəmir qaydalar"ın yoxluğu. Nümunələr. | |
| **12** | **05.XII. 2022 müh.** | Mövzu 12. Bədii əsərin quruluşu. Fabula, süjet və kompozisiya<br>Bədii əsər canlı orqanizm, yazıçı tərəfindən yaradılmış xüsusi "dünya" kimi. Həmin "dünya"nın adamları, yaxud bədii əsərin surətlər aləmi. İnsan surətləri. Əşya və təbiət suraətləri. Əsas və epizodik, mənfi və müsbət surətlər. Tip və xarakter. Ədəbi qəhrəman. Fabula anlayışı. Nəzəri fikirdə işlənmə tarixi və mahiyyəti. Aristotel fabula haqqında. Fabula bədii əsərin hadisə əsası kimi. Süjet anlayışı. Nəzəri fikirdə işlənmə tarixi və mahiyyəti. Süjet – bədii əsərin fəaliyyət əsası, hər hansı surətin (tipin) təşəkkül və inkişaf tarixi kimi. Mərhələləri: ekspozisiya, düyün (zavyazka), inkişaf, kulminasiya, açılma (razyazka), final. Fabula və süjetin qarşılıqlı əlaqəsi. Kompozisiya – bədii əsərdəki hadisələrin surətlərin fəaliy-yətinin sistemli düzümü kimi. Klassik və müasir əsərlərin | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Bədi əsərdə insan surətlərini təqdim edəcək slaytlar hazırlamaq<br>2. Fabula anlayışına aydınlıq gətirmək və bunun üçün Aristotelin "Poetika" əsərindən sitatalar seçmək<br>3. Süyetin mərhələlərini sxemlər əsasında aydınlaşdırmaq<br>Kompozisiyanı şərh etmək |

| | | | |
|---|---|---|---|
| | | kompozisiya xüsusiyyətləri. Bəzi əsərlərdə proloq və epiloqun verilməsi. Onların funksiyası. Klassik epik məsnəvilərdə və dastan-lardakı "rəsmi girişlər" kompozisiya elementi kimi. | |
| **13** | **12.XII. 2022 müh.** | Mövzu 13. Ədəbi məktəblər və ədəbi cərəyanlar<br>Ədəbi məktəb müəyyən sənətkarın adı və yaradıcılığı ilə bağlı olan bədii ənənələr sistemidir. Nizami, Füzuli, Vaqif, Sabir, Rəsul Rza ədəbi məktəbləri haqqında məlumat. Ədəbi cərəyan – ideologiyası, ictimai hadisələrə münasibəti və bədii sənətkarlıq baxımından eyni mövqeli yazıçıların birliyidir. Ədəbi cərəyanın ədəbi məktəbə nisbətən geniş birlik olması, tarixi səciyyə daşıması, əsasən, ictimai-siyasi vəziyyətin tələbi ilə meydana gəl-məsi. İlk ədəbi məktəblərin və cərəyanların Şərqdə meydana gəl-məsi: sufizm və hürufizm. Onların ictimai-həyati, dini-fəlsəfi, bədii-estetik səciyyəsi və əsasları. Azərbaycan ədəbiyyatında sufizm və hürufizm. Onların fərqli və oxşar cəhətləri. Qərb ədəbiyyatında ilk cərəyanlar: klassizm, senti-mentalizm, simvolizm. XIX-XX əsrlərdə ədəbi cərəyanlar: naturalizm, realizm, romatizm, mo-dernizm, postmodernizm. Onların meydana gəldiyi ictimai-tarixi şərait və əsas xüsusiyyətləri. Azərbaycan ədəbiyyatında realizm və romantizm cərəyanları. Onları təşəkkül tapdığı tarixi şərait. Realizmin tarixi tipləri: didaktik realizm, maarifçi realizm, tənqidi realizm, ssialist realizmi. Bu realizmlərin özünəməxsusluğu və görkəmli nümayəndələri. Azərbay-can ədəbiyyatında romantizm. Yarandığı ictimai-tarixi şərait. Milli-tipoloji xüsusiyyətləri və görkəmli nümayəndələri. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Ədəbi məktəbə aid əsas göstəriciləri sxemlər əsasında izah etmək<br>2. Azərbaycan ədəbiyyatında Nizami, Füzuli, Vaqif, Mirzə Cəlil məktəblərinin sənət prinsipləri və əsas nümayəndələri haqqında məruzə hazırlamaq<br>3. Ədəbi sərəyanlara aid slayt hazırlamaq<br>4. Azərbaycan ədəbiyyatında ədəbi cərəyanlar məsələsinin şərh etmək<br>Ədəbiyyatımızda realizm və romantizm ədəbi cərəyanların oxşar və fərqli xüsusiyyətlərini dəyərləndirmək |
| **14** | **19.XII. 2022 müh.** | Mövzu 14. Bədii metod və üslub<br>Bədii metod yazıçının həyat faktlarını seçib əks etdirdiyi zaman – | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: |

| | | | |
|---|---|---|---|
| | | bədii dünya yaradarkən əsaslandığı başlıca prinsiplərdir. Real və ideal, görünən və arzulanan aləm. Metodun yazıçı dünyagörüşü və həyat təcrübəsi ilə bağlı olması. Varlığın obyektiv və subyektiv dərki və əksi. Realit metodun həyatı obyektiv əks etdirməsi. Əsas prinsipləri: tarixən konkret bir dövrün, insanın, yaxud insan qrupunun tipik şəraitdə və tipik surətlərlə əks etdirməsi. Romantik metodda varlığa subyektiv münasibətin aparıcı olması və ideal, arzulanan həyatın canlandırılması. Realist və romantik surətlər. Onların fərqi və özünəməxsusluğu. Üslub yazıçının həyatı idrak və inikas üsullarının məcmusu, metodun konkret təzahür forması kimi. Realist və romantik üslub. Onların fərqi və konkret ədəbi növ və janrlarda təzahürü. Üslubun nitqlə əlaqəsi və tarixi səciyyəsi. Nəzm və nəsr üslubu. Bədii inikas üsulları (ədəbi növlər) baxımından üslubun tipləri: lirik, epik və dramaturji üslublar. Bu üslubların konkret janrlarda təzahürü. | 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br>Tapşırıqlar:<br>1. Romantik və realist metodu fərqləndirən əsas xüsusiyyətlərin sxemlər əsasında təqdimatını hazırlamaq.<br>2. Tipik şəraitdə tipik surətin yaradılması zamanı yazıçının nəzərə almalı cəhətlərə dair məruzə hazırlamaq<br>3. Ədəbi sərəyanlara aid slayt hazırlamaq<br>Realist və romantik üslubun ədəbi növ və janrlarda təzahürü məsələsinin izahı |
| **15** | **26.XII. 2022 müh.** | Mövzu 15. Bədii dil. Məcazlar sistemi. Bədii təsvir və ifadə vasitələri<br>Dil ünsiyyət vasitəsidir. Bədii dil-obrazlı təşəkkürün ifadə vasitəsidir. Onun şərti mənada, "bədii üslub" anlayışını bildirən termin olaraq işlənməsi. Bədii dil-incəsənət hadisəsi kimi. Sözün həqiqi və məcazi mənası. Nəsr dili və nəzm dili anlayışları. Poetizm nədir? Onun adi sözdən fərqi. Bədii leksika. Ümumişlək sözlər, neologizmlər, arxaizmlər, dialektizmlər, terminlər, varvarizmlər, vulqar sözlər və jarqonlar. Bu sözlərin bədii əsərdə işlənmə səbəbləri və qaydaları. Söz qrupları. Sinonimlər, omonimlər, antonimlər, paronimlər. Mahiyyəti və rolu. Yazıçı dili və surət dili anlayışları. Bu anlayışların şərti məna daşıması. Məcazlar sistemi. Bədii | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Bədii təsvir vasitələrinə aid slayt hazırlamaq<br>2. Bədii ifadə vasitələrinə aid slayt hazırlamaq<br>3. Nəsr dili və nəzm dili anlayışları ilə bağlı məruzə hazırlamaq |

| | | | |
|---|---|---|---|
| | | təsvir vasitələri: epitet, təşbeh (bənzətmə), metafora, metonimiya, sinekdoxa. Bədii ifadə vasitələri. Onların bədii təsvir vasitələrindən fərqi. Bədii sual, bədii təzad (antiteza), təkrir, kinayə, mübaliğə (hiperbola), litota, inversiya. Onların bədii əsərdə funksiyası və rolu. Nümunələr. | 4. Müəyyən bir əsərin leksikasını hazırlamaq |
| | | | |
| | | SEMİNAR | |
| **2** | **22.IX.2022** | Mövzu 1. Bədii ədəbiyyat. Ədəbiyyat nəzəriyyəsi elminin təşəkkülü və inkişafı.<br><br>Elm, din, əxlaq, incəsənət, fəlsəfə ictimai şüurun formları kimi. Bədii ədəbiyyat ictimai həyatın, cəmiyyətin obrazlı əksidir. Yaradıcılıq prosesinin mərhələləri: həyatı öyrənmə, düşünmə, canlandırma. Qədim Yunanıstan və Romada ədəbi-nəzəri fikir. Aristotelin “Poetika” əsəri haqqında məlumat. Klassizm nəzəriyyəsi. N.Bualonun “Poeziya sənəti” əsəri. Romantizmi dövrünün sənətkarları ədəbiyyat haqqında. Realizmi dövründə ədəbi-nəzəri fikir Ədəni-nəzəri fikrin inkişafında sosialist realizmi dövrü | Dərslik:<br>5. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012.<br>6. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981.<br>7. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008.<br>8. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. İctimai şüurun mahiyyətinə aydınlıq gətirmək.<br>2. Bədii ədəbiyyatın digər ictimai şüur formalarından oxşar və fərqli xüsusiyyətlərini bilmək.<br>3. Ədəbiyyatın xəlqi səciyyəsi və tərbiyəvi əhəmiyyətini şərh etmək.<br>4. Yaradıcılıq prosesinin mərhələlərinə dair sxem tərtib etmək |

| | | | |
|---|---|---|---|
| | | | 5. Platonun ədəbi-nəzəri görüşlərini şərh etmək.<br>6. Aristotelin ədəbiyyat haqqında fikirlərinə aydınlıq gətirmək.<br>7. Bualonun "Poeziya sənəti" əsərini təhlil etmək.<br>Romantik və realist sənətkarların ədəbiyyata münasibətdə oxşar və fərqli məqamları sxemlər üzrə şərh etmək. |
| **4** | **06.X. 2022** | Mövzu 2 Azərbaycanda ədəbi-nəzəri fikir. Ədəbiyyatda forma və məzmun, ənənə və novatorluq<br><br>Xətib Təbrizinin "Əruz və qafiyə elminə dair" qısa xülasə traktatı. Yusif Xoylunun şeir haqqında mülahizələri. Ə.Xəqani, N.Gəncəvi, A.Ərdəbilli, M.Füzuli kimi şairlərin söz haqqında fikirləri. Şərafəddin Ramini (XIV əsr) "Ənisül-Üşşaq" və "Həqayiqül-Həqayiq" əsərləri. Vəhid Təbrizinin (XV əsr) "Risaleyi-Cəmi-Muxtəsər" və "Miftahül-Bədaye" ("Bədiyyatın açarı"), N.Tusinin "Meyarül-Əşar" risalələri. Azərtbaycan ədəbi-nəzəri fikrin inkişafında təskirələrin rolu. Azərbaycan ədəbi-nəzəri fikri XIX və XX əsrlərdə. XX əsrin 20-ci illərindən sonra Azərbaycanda ədəbiyyat nəzəriyyəçiləri. Forma və məzmun anlayışları. Məzmun kateqoriyasının komponentləri: Mövzu, ideya, ədəbi qəhrəman. Forma kateqoriyasının komponentləri. Dil, üslub, ədəbi növ və janrlar. Milli ideyanın qeyri-milli formada yaxud qeyri-milli ideyanın milli formada verilə bilməsi.<br>Ənənə - tarixən müəyyən dövrdə yaranmış və sonrakı dövrlərdə yaşadılan, davam etdirilən bədii- | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012.<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981.<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008.<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Xətib Təbrizinin ədəbiyyat haqqında düşüncələrini sxemləşdirmək<br>2. Ədəbi-nəzəri görüşlər baxımından Nizami ilə A.Ərdəbilini fərqləndirən məqamlara aydınlıq gətirmək<br>3. Füzulinin "Söz" qəzəlini əzbərləmək, təhlil etmək<br>4. M.F.Axundzadənin "Nəzm və nəsr" haqqında əsərində müəllifin ədəbi mövqeyinə aydınlıq gətirmək.<br>5. XX əsrin 20-ci illərindən sonra Azərbaycanda ədəbiyyat nəzəriyyəçilərinin xidmətlərini ümumiləşdirmək.<br>6. Forma və məzmun |

<table>
<tr><td></td><td></td><td>mənəvi sərvətlər, yetkin-ədəbi nailiyyətlər kompleksi kimi. Nova-torluq – klassik ənənələr üzərində yaranan və təzə ənənələrin meydana gəlməsinə stimul verən yenilik, “köhnənin” inkişaf etdirilməsi əsasında yananan təzə.</td><td>kateqoriyasının komponentlərini aydınlaşdıracaq sxemlər tərtib etmək<br>7. Ədəbiyyatda Nizami, yaxud Füzuli ənənlərinin mahiyyətinə aydınlıq gətirmək.</td></tr>
<tr><td>6</td><td>20.X. 2022</td><td>Mövzu 3. Bədii inikas üsulları və ədəbi növlər.<br>Lirik növün janrları<br><br>Bədii inikas obyekltiv varlığın insan beynindəki surəti kimi. Həmin surətin yaradılmasında hiss, duyğu, düşüncə, və təfəkkürün rolu. Lirik növdə həyat hadisələrinin hisslər və duyğular vasitəsilə əksi. Lirikanın növləri: Məhəbbət lirikası, ictimai-siyasi lirika, peyzaj lirikası. Epik növdə təhkiyə və onun quruluşu. Dramatik növün özünəməxsusluğu. Azərbaycan şifahi xalq ədəbiyyatında lirik növün janrları. Nəğmələr və onların növləri. Mahnılar və onların nəğmələrdən fərqi. Aşıq şeirinin janrları. Qoşma, gəraylı, varsağı, təcnis, müxəmməs. Bu janrların məzmunca və formaca tipləri: Gözəlləmə, ustadnamə, vücudnamə, qıfılbənd, dodaqdəyməz, diltərpənməz. Ayaqlı qoşma. Ayaqlı təcnis. Cığalı təcnis. Bayatı. Azərbaycan klassik şeirinin janrları. Qəsidə və növləri. Qəzəl, qitə, məsnəvi, rübai, tuyuğ, mürəbbe, müxəmməs, müsəddəs, tərkibbənd, tərcibəbənd</td><td>Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. “Bədii inikas” məfhumunun mahiyyətinə aydınlıq gətirmək.<br>2. Obyektiv varlığın insan beynində bədii əksinin yaradılmasında hiss, duyğu, düşüncə, və təfəkkürün rolunu şərh etməyi bacarmaq<br>3. Lirikanın məzmunca növlərinə dair sxemlər tərtib etmək .<br>4. Epik növdə təhkiyyənin quruluşunu aydınlaşdırmaq.<br>5. Dramatik növün özünəməxsusluğunu sxemlər üzrə şərh etmək<br>6. Azərbaycan şifahi xalq ədəbiyyatında lirik növün janrlarını sxemlər üzrə şərh etmək.<br>7. Nəğmələrin növlərinə dair sxemlər tərtib etmək<br>8. Aşıq şeirinin janrlarına aid slayt hazırlamaq.<br>9. Aşıq şeirinin janrlarını səciyyələndirən oxşar və</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | | fərqli xüsusiyyətləri aydınlaşdırmaq.<br>10. Azərbaycan klassik şeirinin janrlarını aydınlaşdıracaq slayt hazırlamaq |
| **8** | **03.XI. 2022** | Mövzu 4. Epik və dramatik növün janrları.<br><br>Şifahi xalq ədəbiyyatında epik növün janrları: Dastan janrında epikliklə lirikliyin vəhdəti. Yazılı ədəbuyyatda epik növün janrları. Mövzusuna görə romanın tipləri: tarixi və müasir roman. Problematikasına görə romanın növləri: Siyasi roman, fəlsəfi roman, psixoloji roman, ailə-məişət romanı. Dilogiya, trilogiya, epopeya haqqında məlumat.<br>Dramatik konfliktin növləri: komik, tragik və dramik konfliktlər. Azərbaycan şifahi xalq ədəbiyyatında dramatik növ. Yazılı ədəbiyyatda dramatik növün janrları. Komediya. Faciə. Dram janrı. Bu janrın komediya və faciə arasında “orta mövqe” tutması. Melodram – faciə və dram arasında “orta mövqeli” janr kimi. Bu janrda qəhrəmanın çətin vəziyyətdə qalıb böyük iztirablar çəkməsi və axırda bu vəziyyətdən qurtarıb istəyinə çat-ması. Vodevil – kiçik həcmli kome-dik janrdır. Bu janrda bədii gülüşün əyləndirici səciyyə daşıması. Vo-devil qəhrəmanının “qeyri-ciddi”, “vecsiz” adamlar içərisindən seçilməsi və xaraktercə təlxəkvari olması. Təsvir edilən hadisələrin zahirən ictimai mənadan uzaqlığı. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Epik növün janrlarını sxemlər üzrə şərh etmək.<br>2. Yazılı ədəbiyyatda epik növün janrlarına aid slayt hazırlamaq.<br>3. Problematikasına görə romanın növlərini sxemlər üzrə şərh etmək.<br>4. Epik növdə silsiləviliyə dair məruzə hazırlamaq<br>5. üzrə şərh etmək.<br>6. Dramatik növün köməkçi janrlarına dair sxemlər hazırlamaq .<br>7. Azərbaycan şifahi xalq ədəbiyyatında dramatik növ məsələsinə aydınlıq gətirmək.<br>8. Komediyanın əsas əlamətlərini şərh etmək<br>9. Faciə və komediyanı Aristotel mövqeyindən fərqləndirmək<br>Tragik qəhrəman və tragik xarakter məsələsi ilə bağlı məruzə hazırlamaq |

| | | | |
|---|---|---|---|
| **10** | **17.XI. 2022** | Mövzu 5. Həyat eybəcərliklərinin estetik əksi. Bədii gülüş. . Bədii nitqin təşkili formaları<br><br>Gülüş həyat eybəcərliklərini əks etdirən bədii vasitə kimi. Şifahi xalq ədəbiyyatında gülüşün özünəməx-susluğu və məşhur gülüş qəhrəmanları: Yazılı ədəbiyyatda bədii gülüşün növləri: satira və yumor. Satiranın kəskin (öldürücü) gülüş olması. Azərbaycan ədəbiyyatında satiranın təşəkkülü və inkişaf mərhələləri. Yumor – islahedici gülüşdür. Yumorda tənqid pafosunun üstün mövqeyi.<br>Bədii nitq anlayışı. Formaları: nəzm və nəsr. Nəzmin əlamətləri: ölçü, ahəng, bölgü, qafiyə, rədif. Şeir – poeziya anlayışı. Şeir-xüsusi məna, fikir ifadə edən bütöv mətn kimi. Mətnin daxili bölgüləri. Misra, beyt, bənd. Misranın növləri: Müstəqil və asılı misra. Beytin növləri: qafiyələnən və qafiyələnməyən beytlər. Qara beyt, şah beyt, tac beyt. Qafiyə - səs tərkibinə görə uyuşan sözlər. Uyuşmanın dərəcəsinə görə qafiyənin növləri: tam (zəngin) qafiyə, natamam (kasıb) qafiyə. Səslənməsinə görə qafiyənin növləri: qulaq qafiyəsi, göz qafiyəsi. Misralardakı yerinə görə qafiyənin növləri: ön qafiyə, orta (daxili) qafiyə, son qafiyə. Hansı nitq hissəsi ilə ifadə olunmasına görə qafiyənin növləri: ismi və feli qafiyələr. Sadə və mürəkkəb rədiflər. Nəsrin əlamətləri. Nəsr ahəngi və intonasiyası. Bədii nitqin tipləri: dialoq və monoloq. Nəsrin tipləri: bədii və publisistik nəsr. Onların oxşar və fərqli cəhətləri. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Həyat eybəcərliklərinin estetik əksinin bədii gülüş formasında əks olunmasına dair məruzə hazırlamaq.<br>2. Azərbaycan şifahi xalq ədəbiyyatında məşhur gülüş qəhrəmanlarına dair slayt hazırlamaq .<br>3. Satiranın əsas səciyyəvi xüsusiyyətlərini aydınlaşdıracaq sxemlər tərtib etmək.<br>4. M.Ə.Sabir yaradıcılığı əsasında satiranı yumordan fərqləndirmək<br>5. Yumorun islahedici gülüş olduğunu əsaslandırmaq<br>6. Nəzmin əlamətlərini sxemlər üzrə aydılmaşdırmaq.<br>7. Nəzmin əlamətlərinə dair slayt hazırlamaq.<br>8. Qafiyənin növlərinə dair sxemlər tərtib etmək<br>9. Rədifin növlərinə dair sxemlər tərtib etmək<br>10. Nəsrin əlamətlərini aydınlaşdırmaq<br>11. Dialoq və monoloqa aid məruzə hazırlamaq<br>12. “Ölülər” əsərindən İskəndərə aid monoloqları əzbərləmək |

| | | | |
|---|---|---|---|
| **12** | **01.XII. 2022** | Mövzu 6. Şeir vəznləri.<br>Bədii əsərin quruluşu.<br><br>Vəzn – nəzmi nəsrdən fərqləndirən və poetik nitqdə ahəng yaradan əsas amil kimi. Dünya poeziyası tarixindəki vəznlər: antik vəzn, tonik vəzn, sillabik vəzn haqqında qısa məlumat. Azərbaycan şeirinin vəznləri. Heca vəzni. Dördhecalı, beşhecalı, altıhecalı və s. şeirlər. Misraların daxili bölgüsünə görə növləri. Əruz vəzni. Onun hecaya nisbətən mürəkkəb qaydalı olması: misralardakı hecaların sayı ilə bərabər onların uzun və qısalığının nəzərə alınması. Təfilə və onun növləri. Əruz vəzninin müxtəlif təfilələri əsasında yaranan formaları – bəhr. Azərbaycan əruzunda işlənən bəhrlər: həzəc, rəməl, rəcəz, müctəs, müzare, mütəqarib, münsərih, xəfif, səri, mütədarik, kamil, müqtəzəb. Ən çox işlənən bəhrlər: rəməl, həzəc, münsərih, xəfif, səri. Sərbəst vəzn. Özünəməxsusluğu. Yaranma tarixi və nümunələr. Sərbəst şeirdə əruz və hecaya məxsus “dəmir qaydalar”ın yoxluğu.<br>Fabula anlayışı. Nəzəri fikirdə işlənmə tarixi və mahiyyəti. Aristotel fabula haqqında. Süjet anlayışı. Süjet və onun mərhələləri: ekspozisiya, düyün (zavyazka), inkişaf, kulminasiya, açılma (razyazka), final. Fabula və süjetin qarşılıqlı əlaqəsi. Kompozisiya – bədii əsərdəki hadisələrin surətlərin fəaliyyətinin sistemli düzümü kimi. Bəzi əsərlərdə proloq və epiloqun verilməsi. Onların funksiyası. | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br>Tapşırıqlar:<br>1. Şeirdə vəznin mahiyyətinə aydınlıq gətirmək<br>2. Dünya poeziyası tarixində vəznlərə dair sxemlər hazırlamaq.<br>3. Qafiyənin növlərinə dair sxemlər tərtib etmək<br>4. Rədifin növlərinə dair sxemlər tərtib etmək<br>5. Heca vəzninə dair məruzə hazırlamaq<br>6. Sərbəst şeirin əsas xüsusiyyətlərini səciyyələndirmək<br>7. edəcək slaytlar hazırlamaq<br>8. Fabula anlayışına aydınlıq gətirmək və bunun üçün Aristotelin “Poetika” əsərindən sitatalar seçmək<br>9. Süyetin mərhələlərini sxemlər əsasında aydınlaşdırmaq<br>Kompozisiyanı şərh etmək |
| **14** | **05.XII. 2022** | Mövzu 7. Ədəbi məktəblər və cərəyanlar. Bədii metod və üslub.<br><br>Ədəbi məktəb müəyyən sənətkarın adı və yaradıcılığı ilə bağlı olan bədii ənənələr sistemidi. Ədəbi cərəyan – ideologiyası, ictimai hadisələrə münasibəti və bədii sənətkarlıq | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008 |

| | | | |
|---|---|---|---|
| | | baxımından eyni mövqeli yazıçıların birliyidir. İlk ədəbi məktəblərin və cərəyanların Şərqdə meydana gəlməsi: sufizm və hürufizm. Azərbaycan ədəbiyyatında sufizm və hürufizm. Qərb ədəbiyyatında ilk cərəyanlar: klassizm, sentimentalizm, simvolizm. XIX-XX əsrlərdə ədəbi cərəyanlar: naturalizm, realizm, romatizm, modernizm, postmodernizm. Azərbaycan ədəbiyyatında realizm və romantizm cərəyanları. Realizmin tarixi tipləri: didaktik realizm, maarifçi realizm, tənqidi realizm, ssialist realizmi.<br>Bədii metod yazıçının həyat faktlarını seçib əks etdirdiyi zaman – bədii dünya yaradarkən əsaslandığı başlıca prinsiplərdir. Metodun yazıçı dünyagörüşü və həyat təcrübəsi ilə bağlı olması. Realit metodun həyatı obyektiv əks etdirməsi. Romantik metodda varlığa subyektiv münasibətin aparıcı olması və ideal, arzulanan həyatın canlandırılması. Üslub yazıçının həyatı idrak və inikas üsullarının məcmusu, metodun konkret təzahür forması kimi. Realist və romantik üslub. Bədii inikas üsulları (ədəbi növlər) baxımından üslubun tipləri: lirik, epik və dramaturji üslublar. Bu üslubların konkret janrlarda təzahürü. | 4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996<br><br>Tapşırıqlar:<br>1. Ədəbi məktəbə aid əsas göstəriciləri sxemlər əsasında izah etmək<br>2. Azərbaycan ədəbiyyatında Nizami, Füzuli, Vaqif, Mirzə Cəlil məktəblərinin sənət prinsipləri və əsas nümayəndələri haqqında məruzə hazırlamaq<br>3. Ədəbi sərəyanlara aid slayt hazırlamaq<br>4. Azərbaycan ədəbiyyatında ədəbi cərəyanlar məsələsinin şərh etmək<br>5. Ədəbiyyatımızda realizm və romantizm ədəbi cərəyanların oxşar və fərqli xüsusiyyətlərini dəyərləndirmək<br>6. Romantik və realist metodu fərqləndirən əsas xüsusiyyətlərin sxemlər əsasında təqdimatını hazırlamaq.<br>7. Tipik şəraitdə tipik surətin yaradılması zamanı yazıçının nəzərə almalı cəhətlərə dair məruzə hazırlamaq<br>8. Ədəbi sərəyanlara aid slayt hazırlamaq<br>Realist və romantik üslubun ədəbi növ və janrlarda təzahürü məsələsinin izahı |
| | | Mövzu 8. Bədii dil. Məcazlar sistemi. Bədii təsvir və ifadə vasitələri<br>Dil ünsiyyət vasitəsidir. Bədii dil-obrazlı təşəkkürün ifadə vasitəsidir. Onun şərti mənada, “bədii üslub” anlayışını bildirən termin olaraq işlənməsi. Bədii dil-incəsənət hadisəsi kimi. Sözün həqiqi və məcazi mənası. Nəsr dili və nəzm dili anlayışları. Poetizm nədir? Onun adi sözdən fərqi. Bədii leksika. Ümu- | Dərslik:<br>1. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2012<br>2. Mikayılov Şəmistan. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1981<br>3. Qəhrəmanlı N. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 2008<br>4. Hacıyev A. Ədəbiyyat nəzəriyyəsi. Bakı: 1996 |

| | | | |
|---|---|---|---|
| | | mişlək sözlər, neologizmlər, arxaizmlər, dialektizmlər, terminlər, varvarizmlər, vulqar sözlər və jarqonlar. Bu sözlərin bədii əsərdə işlənmə səbəbləri və qaydaları. Söz qrupları. Sinonimlər, omonimlər, antonimlər, paronimlər. Mahiyyəti və rolu. Yazıçı dili və surət dili anlayışları. Bu anlayışların şərti məna daşıması. Məcazlar sistemi. Bədii təsvir vasitələri: epitet, təşbeh (bənzətmə), metafora, metonimiya, sinekdoxa. Bədii ifadə vasitələri. Onların bədii təsvir vasitələrindən fərqi. Bədii sual, bədii təzad (antiteza), təkrir, kinayə, mübaliğə (hiperbola), litota, inversiya. Onların bədii əsərdə funksiyası və rolu. Nümunələr. | Tapşırıqlar:<br>1. Bədii təsvir vasitələrinə aid slayt hazırlamaq<br>2. Bədii ifadə vasitələrinə aid slayt hazırlamaq<br>3. Nəsr dili və nəzm dili anlayışları ilə bağlı məruzə hazırlamaq<br>4. Müəyyən bir əsərin leksikasını hazırlamaq |
| | | | |
| | | **Fənn müəllimi:** | **Dosent İman Cəfərov** |